

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 54 (23.696)

*20 mart 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbinin publik hüquqi şəxsə çevrilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi publik hüquqi şəxsə çevrilsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində qeyd olunan publik hüquqi şəxsin nizamnaməsini və ştat strukturunu təsdiq etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 mart 2021-ci il*

## Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) nümayəndə heyəti Naxçıvanda olub




Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında səfərdə olub. Səfər KOBİA-nın fəaliyyət istiqamətləri, mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərdiyi xidmətlər barədə Naxçıvan sahibkarlarını məlumatlandırmaq, muxtar respublikanın müvafiq qurumları ilə KOB subyektlərinin inkişafına dəstəkyönümlü təklifləri müzakirə etmək məqsədi daşıyıb.

Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin, Sahibkarlar Konfederasiyasının və digər müvafiq qurumların iştirakı ilə agentliyin nümayəndələri sahibkarlarla görüşüb. Tədbirdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov təqdimatla çıxış edərək agentliyin fəaliyyəti, KOB subyektlərinə göstərilən dəstək və xidmətlər barədə ətraflı məlumat verib. Bildirilib ki, məqsəd dövlətin dəstək mexanizmlərini sahibkarlar üçün daha faydalı etmək, onların inkişafına əlverişli şərait yaratmaqdır. Hazırda agentlik tərəfindən sahibkarlara daxili bazar araşdırmalarının aparılması, sərgilərdə iştirak, klasterləşmə, startap fəaliyyəti, bilik və bacarıqların inkişafı, layihələrin maliyyələşdirilməsi istiqamətlərində dəstək göstərilir.

Tədbir çərçivəsində KOBİA-nın fəaliyyəti və dəstək mexanizmləri barədə filmlər nümayiş olunub, sahibkarları maraqlandıran suallar cavablandırılıb.

Orxan Məmmədov Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev və Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasovla görüşüb. Görüşdə KOB sahəsində birgə əməkdaşlıq imkanlarına, agentliyin dəstək və xidmətlərindən Naxçıvan sahibkarlarının istifadə etməsinə dair müzakirələr aparılıb.

KOBİA-nın nümayəndələri Naxçıvan Biznes Mərkəzində yerli istehsal olan məhsulların nümayiş etdirildiyi sərgi, eləcə də bir sıra istehsal müəssisələrinin fəaliyyəti ilə tanış olublar.

**Xəbərlər şöbəsi**

## Professor Tofiq Əliyevin 70 illik yubileyi qeyd edilib

***Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Tofiq Əliyevin 70 illik yubileyi münasibətilə tədbir keçirilib.***



Tədbiri giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev əvvəlcə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yubilyara ünvanladığı təbrik məktubunu oxuyub.

Akademik muxtar respublikada elm xadimlərinə göstərilən diqqət və qayğıdan danışaraq professorun elmi fəaliyyətinə qısa nəzər salıb. Vurğulayıb ki, Tofiq Əliyev Azərbaycan kimya elminin inkişafına dəyərli töhfələr verən, yeni nəsil kimyaçıların formalaşmasında xüsusi xidmətləri olan alimlərdəndir.

Sonra akademik İsmayıl Hacıyev çoxillik səmərəli fəaliyyəti və 70 illik yubileyi münasibətilə yubilyara AMEA Naxçıvan Bölməsinin Fəxri fərmanını təqdim edib.

Tədbirdə bölmənin Təbii Ehtiyatlar İnstitutunun elmi katibi, kimya üzrə fəlsəfə doktoru, dosent Əhməd Qarayevin "AMEA-nın müxbir üzvü, professor Tofiq Əliyevin həyatı, elmi və pedaqoji fəaliyyəti" mövzusunda məruzəsi dinlənilib. Bildirilib ki, 1951-ci il mart ayının 25-də Naxçıvan şəhərinin Əliabad qəsəbəsində dünyaya göz açan Tofiq Əliyev öz ömrünü elmə bağlayıb. 1974-cü ildən Naxçıvan Dövlət Universitetində baş laborant, assistent, müəllim, baş müəllim, dosent, dekan müavini, kafedra müdiri vəzifələrində çalışıb. O həm də 2019-cu ildən AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun direktoru vəzifəsində çalışır.

Əhməd Qarayev diqqətə çatdırıb ki, Naxçıvan Dövlət Universitetinin tarixində ilk dəfə eksperimental xarakterli tədqiqat işlərinin aparılması məhz Tofiq Əliyevin adı ilə bağlıdır. Onun apardığı tədqiqat işlərinin əsas hissəsi böyük elmi-praktik əhəmiyyət kəsb edən bir məsələyə – neft və qaz sənayesində istismar olunan polad avadanlıqların korroziya, abraziv və mikrobioloji dağılmadan mühafizəsi məsələlərinə həsr olunub. Alim 1988-ci ildə "İkifazalı karbohidrogen – elektrolit sistemlərində fenolun bəzi törəmələri vasitəsilə poladın korroziyadan inhibitorlaşdırılması prosesinin fiziki-kimyəvi öyrənilməsi" mövzusunda namizədlik dissertasiyası, 2011-ci ildə isə "Fenollar, merkaptosirkə və ksantogenat turşularının bəzi funksional törəmələrinin inhibitor təsirinin fiziki-kimyəvi əsasları" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. 1991-ci ildə dosent, 2017-ci ildə isə professor elmi adı alıb, AMEA-nın müxbir üzvü seçilib.

Qeyd olunub ki, Tofiq Əliyevin apardığı tədqiqatlar 5 kitab, 1 dərs proqramı, 2 patent, çoxsaylı məqalə və tezislər olmaqla, 150-dən artıq elmi əsərdə öz əksini tapıb. Elm və təhsil sahəsində uğurları, elmi metodik hazırlığı nəzərə alınaraq Tofiq Əliyev Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən "Tərəqqi" medalı ilə, müxtəlif dövrlərdə Naxçıvan Dövlət Universitetinin Fəxri fərmanları ilə təltif edilib, 2008-ci ildə həmin ali təhsil müəssisəsində "İlin alimi" fəxri adına layiq görülüb.

Sonra çıxışlar olub. Tədbirin yekununda yubilyar Tofiq Əliyev əməyinə verilən yüksək dəyərə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını ifadə edib, gələcək fəaliyyətində bu qayğını dəyərləndirəcəyini bildirib.

Sonda professor Tofiq Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş "Ömür qatarı" filmi nümayiş olunub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## 2021-ci ilin yanvar-fevral aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2021-ci ilin yanvar-fevral aylarında 369 milyon 178 min 100 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,3 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz artaraq 799,8 manata çatmışdır.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 179 milyon 625 min 700 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2021-ci ilin yanvar-fevral aylarında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 76 milyon 962 min 700 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 4,4 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 70 milyon 692 min manatı və ya 91,9 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2021-ci ilin yanvar-fevral aylarında 16 milyon 689 min 300 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,4 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 3861 ton, süd istehsalı 5316 ton olmuşdur. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 4,5 faiz, süd istehsalı isə 1,7 faiz artmışdır.

* * *



2021-ci ilin yanvar-fevral aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 10 milyon 140 min 100 manat olmuşdur ki, bu da 2020-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 8,2 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 7 milyon 753 min 700 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,5 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2021-ci ilin yanvar-fevral aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 31 milyon 8 min 200 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 12,1 faiz çoxdur. Verilmiş kreditlərin 6 milyon 850 min 600 manatı və yaxud 22,1 faizi qısamüddətli, 24 milyon 157 min 600 manatı və yaxud 77,9 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur ki, bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir. 1 mart 2021-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 93592-yə çatmışdır ki, bunun da 81337-si və ya 86,9 faizi aktiv hesablardır. 2021-ci ilin yanvar-fevral aylarında açılmış 5887 bank hesabının 5886-sı aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 mart 2021-ci il tarixə 1429-a çatmışdır.

***

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2021-ci ilin yanvar-fevral aylarında 56 milyon 280 min ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 37 milyon 340 min 900 ABŞ dolları təşkil etmiş, 18 milyon 401 min 800 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2021-ci ilin yanvar ayında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 536 manata çatdırılmışdır ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 6,4 faiz çoxdur.

* * *

1 fevral 2021-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 1741 nəfər artaraq 461 min 572 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Aşıq Ələsgər – 200

# Aşıq Ələsgərin Naxçıvan səfəri



***Bu günlərdə Azərbaycan aşıq poeziyasının görkəmli siması Aşıq Ələsgərin 200 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi ilə bağlı respublika Prezidenti cənab İlham Əliyevin 2021-ci il 18 fevral tarixdə imzaladığı Sərəncamla Azərbaycan və Türk dünyası ədəbiyyatında mühüm tarixi bir hadisədir. Bu məqsədlə sərəncamın muxtar respublikada icrasının yüksək səviyyədə təmin edilməsilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müvafiq sərəncamı da böyük elmi-mədəni əhəmiyyətə malikdir. Sərəncam əsasında tədbirlər planı hazırlanmış, bu istiqamətdə muxtar respublikada elmi konfransların, yaradıcılıq müsabiqələrinin, interaktiv dərslərin, elmi araşdırmaların aparılması, teleradio verilişlərinin hazırlanması və sair nəzərdə tutulmuşdur.***

Aşıq Ələsgərin özü demişkən:

*Yaxşı hörmətinən, təmiz adınan,*
*Mən dolandım bu Qafqazın elini.*
*Pirə ata dedim, cavana qardaş,*
*Ana-bacı bildim qızı, gəlini.*

Özü Qafqaz elini, şöhrəti isə Türk müsəlman dünyasını dolaşan bu qüdrətli sənətkar Azərbaycanın Naxçıvan torpağında da dəfələrlə olmuş, gözəl saz-söz məclisləri keçirmişdir. Bunların da nəticəsində haqqında bəhs ediləcək "Aşıq Ələsgərin Naxçıvan səfəri" dastan-rəvayəti yaranmışdır. Təbii ki, bu epik-lirik mətndə həm dastan, həm də rəvayət ünsürləri vardır. Burada dastan janrı ilə bağlı nəsr-nəzm növbələşməsi, səfər, yol, saz-söz sınağı, rəvayətə məxsus tarixlə, real hadisələrlə səsləşən məqamlar özünü göstərir.

"Aşıq Ələsgərin Naxçıvan səfəri" dastan-rəvayəti özünəməxsus quruluşa və danışıq-üslub tərzinə malikdir. Mətnin qısa məzmununa görə, Aşıq Ələsgərin təcrübəsiz şagirdi Nağı lovğalığı üzündən ustadından ayrılır, Şərura Məhəmməd bəyin yanına gəlir. Düşünür ki, Məhəmməd bəy hörmətli adamdır. Onun yanında qalıb aşıqlıq etsə, ona toxunan olmaz. Bir məclisdə Cəfərulla adlı bir aşıq onu bağlayıb sazını əlindən alır. Məhəmməd bəy Nağını Aşıq Ələsgərin arxasınca Göyçəyə göndərir. Nağı ustadının yanına gedib əhvalatı ona danışır. Ələsgər Naxçıvana yola düşməyə hazırlaşır. Əyninə köhnə libas geyir, özünü tanınmaz, qoca bir görkəmə salır. Nağıya da deyir ki, məni şəyirdin kimi qələmə verərsən. Adıma da "Solaxəy" aşıq deyərsən.

Ələsgər yolüstü bir çəkmə sifariş verir. Çəkməni alanda görür ki, verdiyi tumaşın əvəzinə çəkməçi ona keyfiyyətsiz materialdan çəkmə tikib. Ələsgər burada beş bənd şeir söyləyir. Sonda da Aşıq Ələsgər olduğunu çəkməçiyə nişan verir:

*Qəşəm olsun xudkeşlərin sərinə,*
*Yalan söz iyidi salar dərinə.*
*Köhnə dağarcığı tumaş yerinə,*
*Aşıq Ələsgərə satma, heyifsən!*

Çəkməçi aşığı tanıyıb üzr istəyir, ona yaxşı bir çəkmə tikib, hörmətlə yola salır.

Aşıq Ələsgər Şərura gəlir, Məhəmməd bəyin bacısı Müşkünaz xanımın qonağı olur. Nə məclisdəkilər, nə də Müşkünaz xanım onu tanımır. "Solaxəy" adı ilə meydana çıxan Aşıq Ələsgərlə Aşıq Cəfərulla və Əsədulla arasında deyişmə olur.

Azərbaycan aşıq yaradıcılığında Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Hüseyn Şəmkirli, Hüseyn Bozalqanlı və digər sənətkarlar deyişmələrə əvvəldən dəvət almışlar. Aşıq Ələsgər də Şərurdakı aşıq deyişməsinə dəvət alıb gəlir. Yaxud Şəmkirli Aşıq Hüseynin Naxçıvanda Reyhan xanımla deyişməsi də Kalbalı xanın dəvətilə baş tutub. Sifarişli deyişmələr üçün belə "dəvət alma"lar Azərbaycan aşıq ədəbiyyatının Naxçıvan mühiti üçün də səciyyəvidir.

Qeyd edək ki, aşıq sənətində deyişmələrin müxtəlif formaları var. Bunlardan ən geniş yayılanı saz-söz məclisində iki aşığın qarşı-qarşıya deyişməsidir. Belə deyişmələr müxtəlif səbəblər üzündən baş verir və demək olar ki, əksər halda çox gərgin yaradıcılıq şəraitində keçir. Burada qarşıda bir-birinə boyun əyməyən iki aşıqdan kimin kimə qalib gələcəyini aydınlaşdırmaq məqsədi durur. Vaxtilə bu məsələyə diqqət yetirən görkəmli folklorşünas alim Məhəmmədhüseyn Təhmasib yazırdı ki, belə ustadlar, hətta bəzən İran-Turan gəzib deyişir, ya qalib gəlir, ya da məğlub olurlar. Deyişmələrdə birinci dəfə məğlub olmuş aşıq özünü məğlub saymırsa, qalib onunla ikinci, üçüncü dəfə də deyişir. Ənənəyə görə, bu vaxt məğlub sazını qalibə təhvil verməli, aşıqlıqdan ya əl çəkməli, ya da qalibdən icazəsiz əlinə saz almamalıdır.

Üç mərhələdə keçirilən deyişmənin birinci hissəsində aşıqlar bir-birinə hərbə-zorba gəlir. Bu aşıqların bir-birini qorxuzub meydandan çıxarmaq cəhdidir. Deyişmənin ikinci mərhələsində aşıqlar eyni hava üstündə eyni rədifə söykənən şeir şəkillərindən istifadə edirlər. Əvvəl sadə şeir şəkillərindən istifadə etməklə tədricən mürəkkəb formalara keçərək bir-birini sınayırlar. Üçüncü mərhələdə aşıqlar müəmma və qıfılbəndlərdən istifadə edir, bir-birini imtahana çəkirlər. Şəriət və təsəvvüflə bağlı bilgilər yoxlanılır. Çətin sınaq mərhələsində qıfılbəndlər oxunur, doğru cavablar gözlənilir. Doğru cavabı söyləyə bilməyən aşıq məğlub sayılır.

"Aşıq Ələsgərin Naxçıvan səfəri"ndəki deyişmənin quruluşu yuxarıda deyilənlərdən bir qədər fərqlidir. Yəni deyişmədə əvvəl hərbə-zorba üsulundan deyil, eyni rədifli şeir şəklindən istifadə edilir. Aşıq Cəfərulla və Əsədulla bəndləri "Ay nədən oldu?" ifadələrilə bitən bağlama ilə deyişməyə başlayır. İlk qarşılaşmada Aşıq Ələsgər görür ki, Aşıq Cəfərulla öz şeirini oxumur. Amma bunun üstünü vurmur və şeirin növbəti bəndin söyləyir:

*Yerin, göyün, ərşin, kürşün, insanın*
*Günhü, bünövrəsi ay nədən oldu?*
*Yeri göydən, göyü yerdən kim seçdi,*
*Hikmətin dəryası ay nədən oldu?*

Məclisdəkilər bu şeirdən hiss edir ki, özünü qanmaz və bir qədər də nizamsız göstərən Solaxəy aşıq məharətli bir qocadır. Sonra eyni rədif üstə bir neçə şeir bəndi oxunur. Solaxəy aşıq deyir:

*Neçə sütun, neçə qəndil vuruldu?*
*Sən kimsən, mən kiməm,*
*kimdən soruldu?*
*Elmin müəmması harda duruldu,*
*Ustadlar ustadı ay nədən oldu?*

Aşıq Cəfərulla deyir:

*Gözəl şahım bizi saldı bir saya,*
*Rəhm elə sən mənim tək beynavaya,*
*Abbas deyər, sirri qaldım xudaya,*
*Pərim bir başərdi, ay nədən oldu?*

Solaxəy aşıq deyir ki, oğul, bu oxuduğun bənd Aşıq Abbasındır.

Aşıq Cəfərulla cavab verir ki, Aşıq Abbas mənəm, söz də mənimdir. Solaxəy aşıq bağlamanın cavabın deyir.

Aşıq Cəfərulla və Əsədulla yenə hiylə işlədirlər. Cəfərulla Aşıq Ələsgərin aşağıdakı bağlama-qıfılbəndinin bir neçə bəndini oxuyur. Sonda da deyir:

*Altı gündə dünya neçə don geydi,*
*Nə üstə əyləşdi, bərqərar oldu?*
*Əzəl kimlər oldu Turun bənnası,*
*Ulduzlar nə təhər yerbəyer oldu?*

Solaxəy aşıq deyir ki, oğul, bu bağlama da Ələsgərindi, bu Ələsgər kimdi? Cəfərulla öz ustadı Aşıq Əsədullanı Ələsgər adı ilə məclisə təqdim edir. Aşıq Ələsgər səbirli, təmkinli insan idi. Yenə bir söz demir, bağlama-qıfılbəndin cavabını açır.

Məlumdur ki, aşıq sənətinin əsas xüsusiyyəti improvizədir. İmprovizə o deməkdir ki, aşıq məclisdə ifa edə-edə yaradır, yarada-yarada ifa edir. Bu xüsusiyyət də Aşıq Ələsgərdə çox qüvvətli olub. Demək olar ki, bu çox sənətkara müyəssər olmayan bir qabiliyyətdir. Deyişmədə aşığa daha çox uğur gətirir. Eləcə də deyişmədə Ələsgər müəmmalardan istifadə edir.

Ələsgərə görə müəmma şeirdə daha çox eyhamdır, yəni məcazdır ki, o, bundan yuxarıda qıfılbəndin bir bəndində və aşağıdakı beytdə istifadə edir:

*Elmi hardan tapdı cümlə aşıqlar,*
*Şeir müəmması ay nədən oldu?*

Aşıq Ələsgərin məharəti, sənətkarlığı hər şeirində, hər misrasında özünü göstərir. Deyişmənin sonunda onun aşıqların hərbə-zorbasına cavabı da çox tutarlı olur. Üç bəndlik həmin hərbə-zorbanın sonunda Ələsgər adını da məclisə bəyan edir:

*Məğrurluq eyləyib, ustadam demə,*
*Olar ki, bir yerdə dara düşərsən.*
*Baş tülək deyilsən, çolpa balasan,*
*Sərgərdan qalarsan, tora düşərsən.*

*Alçaqda otur ki, çıxasan başa,*
*Tülküsən, aslanla girmə savaşa,*
*Əlin vurma gücün çatmayan daşa,*
*Götürə bilməzsən, zora düşərsən!*

*Saxla dilin, özün üçün yağıdı,*
*Aşıq Ələsgərin odlu çağıdı,*
*Çəkər səni caynağında dağıdı*
*Göydən yerə parça-para düşərsən!*

Məclis əhli bu qüdrətli sənətkarı tanıyıb, ürəkdən alqışlayır. Ələsgər dönüb Müşkünaz xanımı görür, ona da layiqli bir tərif deyir:

*Könül gördü, ürək dərdü-vərəmli,*
*Səni gördüm səxavətli, kərəmli,*
*Bir mirzə lazımdı əli qələmli,*
*Mən deyim, vəsfini yaza, Müşkünaz!*

Məclisin sonunun gözəlləmə ilə bitməsi təsadüfi deyil. Məhəbbət dastanlarında məşhur gözəlləmələrdən istifadə etmə halına "Tahir-Zöhrə", "Əsli-Kərəm", "Məsum-Diləfruz" və digər klassik dastanlarda da təsadüf edilir. Bu saz-söz məclisində xoş ovqat yaradır, saz havaları ilə də çox yaxşı uzlaşır.

Ələsgər məclisin sonunda ənənəyə görə, bağladığı aşıqların – Əsədulla və Cəfərullanın sazlarını əllərindən alır.

Aşıq Ələsgər sazı sol əli ilə çalıb, zil, nazik səslə məharətlə oxuyarmış. Görünür ki, buna görə o, dastan-rəvayətdə "Solaxəy" adı ilə çıxış edir. Özünü Nağının şagirdi kimi qələmə verməklə Aşıq Cəfərulla və Əsədullanı şirnikləndirir. Həm də bundan bir metod kimi istifadə edir.

Yuxarıda haqqında bəhs edilən gözəlləmənin son bəndindəki "Qəddim əyib qədri-qəza, Müşkünaz!" – misrasına görə Ələsgər bu şeiri qoca çağlarında söyləyib. Amma məclisdəki davranışına görə Müşkünaz xanım onun 40-dan artıq yaşı olmadığını hiss edir. Ələsgərin 1821-ci ildə anadan olduğunu nəzərə alsaq, 40 yaşı 1860-cı ilə təsadüf edir.

Bir əhvalatın, ya hadisənin epikləşib dastan-rəvayət şəklinə düşməsi üçün müəyyən müddət lazımdır. Aşıq Ələsgər dastan yaratmayıb. Amma ondan soruşulanda ki, dastan yaratmısınız? Cavabında deyib ki, mənim başıma gələn hadisə və əhvalatların hər biri dastandır. Doğrudan da, aşıqla bağlı əhvalatlar, hadisələr əsasında bir çox rəvayətlər yaranmışdır. "Aşıq Ələsgər Dəli Alı", "Ələsgərin Gəncə səfəri", "Aşıq Ələsgərlə Həcər xanım", "Ələsgərlə Aşıq Hüseyn Şəmkirli", "Aşıq Ələsgərin Qarabağa toy səfəri", "Anaxanımın küsməyi" belə örnəklərdəndir. "Aşıq Ələsgərin Naxçıvan səfəri" dastan-rəvayəti də aşıqla bağlı əhvalatlar, şeirlər, daha çox "Heyifsən", "Düşərsən", "Ay nədən oldu", "Müşkünaz" adlı şeirləri əsasında aşıqlar tərəfindən yaradılmışdır.

Ümumiyyətlə, aparılmış araşdırmalar, "Aşıq Ələsgərin Naxçıvan səfəri" və ustadın bir çox şeirləri XIX-XX əsrlər Göyçə aşıq mühitinin Naxçıvan aşıq mühiti ilə sıx sənət və yaradıcılıq ənənələrinə malik olduğunu bir daha göstərir. Göyçə aşıq mühiti, xüsusən də Dədə Ələsgər yaradıcılığı və məktəbi Şərur-Naxçıvan-Şahbuz aşıqlarının yaradıcılığına, sənətdə inkişaf edib təkkül tapmalarına güclü təsir etmişdir.

***Cari il fevralın 18-də Aşıq Ələsgərin 200 illiyinin keçirilməsi ilə bağlı Prezident cənab İlham Əliyevin imzaladığı Sərəncam, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun sərəncamı ilə bu yubileyin muxtar respublikamızda da geniş şəkildə qeyd olunması ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi bu qədim aşıq sənətinin yaşadılmasına göstərilən diqqət və qayğının daha bir nümunəsidir. Bu tarixi sərəncam Aşıq Ələsgər yaradıcılığının, onun Naxçıvan aşıq mühitinin formalaşması və inkişafına təsirinin öyrənilməsinə öz töhfəsini verəcək.***

**Yusif SƏFƏROV**
*filologiya elmləri doktoru*

***Naxçıvan Muxtar Respublikasında sürətli poçt xidmətlərinin göstərilməsi üçün müvafiq lisenziyanın verilməsi Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən həyata keçirilir.***

# Muxtar respublikada sürətli poçt xidmətləri daha da təkmilləşdirilir




Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 6 mart tarixli 57 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında sürətli poçt xidmətlərinin göstərilməsi Qaydaları"nın 1.5 bəndində sürətli poçt xidmətinə lisenziya verilməsi üçün tələb olunan şərtlər müəyyən edilmişdir. Lisenziyanın verilməsi üçün tələb olunan şərtlərə qeyd edilir ki, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduqda şəxsiyyət vəsiqəsinin, hüquqi şəxs olduqda dövlət reyestrindən çıxarışın və Nizamnamənin, vergiödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin, fəaliyyətin həyata keçirildiyi sahəsi 100 $m^2$-dən az olmayan daşınmaz əmlakın mövcudluğu və üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədlərin surətləri təqdim olunmalıdır. Muxtar respublikanın ən azı 3 inzibati ərazi vahidində 20 $m^2$-dən az olmayaraq saxlanma anbarı ilə təmin edilmiş nümayəndəliyin olması, fəaliyyət göstərilən obyektlərdə yanğın təhlükəsizliyi və videomüşahidə sistemlərinin quraşdırılması, çatdırılma və kuryer fəaliyyətinin təşkili üçün mülkiyyət və ya icarə əsasında istifadəsində ən azı 2 yük avtonəqliyyat vasitəsinin olması, lisenziyanın verilməsindən imtina edilmədikdə, lisenziya verilməsinə görə dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd də şərtlərdə öz əksini tapır.



Sürətli poçt göndərişlərində mədəni-məişət və istehsal təyinatlı əşyalar, uzun müddət saxlanıla bilən qida məhsulları, bitkilər, çap məhsulları, dərman preparatları, meyvə, tərəvəz, eləcə də təyinat ölkəsində idxalına icazə verilmiş və qanunvericiliklə qadağan olunmamış digər əşya və malların göndərilməsinə icazə verilir.

Sürətli poçt göndərişlərində "Mülki dövriyyənin müəyyən iştirakçılarının mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş mal və əşyaların göndərilməsi üçün xüsusi icazə tələb olunur.

Sürətli poçt göndərişlərinin qəbul edilməsi, alıcılara çatdırılması mümkün olmadıqda onların saxlanma müddətləri, geri qaytarılması, yeni ünvana göndərilməsi bu qaydalarla müəyyən edilir. İstifadəçilər sürətli poçt xidmətlərinin göstərilməsi qaydaları, xidmətlərin tarifləri, göndərişlərin çatdırılma müddətləri və göndərişlərinə dair digər məlumatları almaq hüququna malikdirlər. Sürətli poçt xidmətlərinin göstərilməsi üzrə öhdəliklər icra olunmadıqda və ya qismən icra olunduqda istifadəçilər tərəfindən pretenziyaların verilməsi, baxılma qaydası və müddəti, o cümlədən məsuliyyət məsələləri də qaydalarda öz əksini tapır.

Sözügedən qaydalarda nəzərdə tutulmuş sürətli poçt xidmətlərinin göstərilməsi barədə tələblərin pozulmasına görə lisenziya verilmiş qurum qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Aparatında sürətli poçt xidmətinə lisenziya verilməsi üçün tələb olunan şərtlərin yerinə yetirilməsini müəyyən edən komissiya yaradılıb. Artıq nazirliyə sürətli poçt xidmətlərinin göstərilməsi ilə bağlı müraciətlər daxil olmağa başlamışdır. Sənədlərə komissiyada baxılmış və müvafiq araşdırma aparıldıqdan sonra komissiyanın qərarına əsasən "Sürət Kargo" Məhdud Məsuliyyətli Cəmiyyətinə rabitə xidmətləri növünün sürətli poçt xidməti alt növünü həyata keçirmək üçün xüsusi lisenziya verilməsinə dair qərar qəbul edilmişdir.

Bu istiqamətdə həyata keçirilən tədbirlər muxtar respublikada sürətli poçt xidmətlərinin daha təkmil formada göstərilməsinə və inkişafına öz töhfəsini verəcəkdir.

*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti*

*Xalqımızın qədim adət-ənənələrini, milli-mənəvi dəyərlərini özündə yaşadan, milli təfəkkürümüzün ayrılmaz hissəsinə çevrilən Novruz ən qədim bayramlarımızdan biridir. Bəşəriyyətin təkamülünün əsasını qoymuş əkinçilik və maldarlıq Yaxın Şərq xalqlarının, eyni zamanda Azərbaycan xalqının təsərrüfat həyatında mühüm rol oynamışdır. Ömrünü torpağa bağlamış əkinçi əcdadlarımız hər yazın gəlişini, həyatın yeniləşməsini səbirsizliklə gözləmiş və sevinclə qarşılamışlar. Bu sevinc bir çox bayramlarda, mərasimlərdə təcəssüm etmişdir.*

# Ənənə boğçamızda Novruz bayramı



"Novruz gəlir" Rəssam Cavid İsmayılov

Novruz adət-ənənə, mərasim sistemi olaraq elə bir qlobal humanizm məzmununa, elə tarixi qədimliyə və mədəni-mənəvi zənginliyə malikdir ki, bu sistemin içində xalqların milli adət-ənənə tarixi öz əksini tapır. Novruz bayramı keçmiş zamanlardan üzübəri yazın gəlişi, otların cücərməsi, təbiətin oyanması və digər təbiət hadisələri ilə müşayiət edilib. Dərin kökləri ilə Azərbaycan mədəniyyətinin uzaq keçmişindən xəbər verən Novruz bayramı xalqımızın həyatında özünəməxsus yer tutur. Xalqımız bu bayramı çox yüksək səviyyədə keçirir.

Yeni gün anlamını verən Novruz xalq təqvimi ilə Çilləbeçənin axırında, yəni qışın bitib yazın girdiyi, gecə ilə gündüzün bərabərləşdiyi gün mart ayının 20-21-i keçirilir. Həmin gün bayram bütün evlərdə xüsusi olaraq qeyd olunur. Həyətlərdə od qalamaq isə Novruz bayramının əsas simvollarından hesab edilir. Od Günəşin, istiliyin yerdəki rəmzi sayıldığı üçün insanlar Novruz bayramında od qalamaqla qışın bütün qada-bəlasından xilas olduqlarına inanırlar. Xalq arasında belə bir inanc da var ki, odu insanlara Günəş bağışlayıb. Bayramda odun rəmzi kimi yumurtaları qırmızı rəngə boyamaq, səməninin ortasına qırmızı parça bağlamaq, Kosanın qırmızı paltar geyinməsi də məhz bu inamla bağlıdır.

Novruz adət-ənənələrinin zənginliyi ilə də digər bayramlardan fərqlənir. Yumurta toqquşdurmaq, papaq atmaq, xoruz döyüşdürmək, səməni cücərtmək kimi maraqlı adətləri xalqımız illərdir, qoruyub saxlayır. Babək rayon sakini Roza nənə deyir ki, Novruz çox mübarək bayramdır. Bayrama bir neçə həftə qalmış insanlar ev-eşiklərini təmizləyər, bayram üçün hazırlıq görərlər. Bayram günündə evlərdə süfrə açılar və süfrəyə növbənöv şirniyyatlar, çərəzlər və bir çox bayram nemətləri düzülər. Yeməklər arasında bayram aşı mütləq olmalıdır. Aş süfrəyə gətirilərkən ailə üzvlərinin sayına görə süfrəyə şam yandırıb qoyurlar. Gün batan kimi uşaqlar bir yerə cəm olub, dəstələnib qapı-qapı gəzib bayram payı yığarlar.

Bayram tonqalı üzərindən atlanarkən hər dildə bu kəlmələr səslənər:

*Ağırlığım, uğurluğum odlara*
*Yazda mənlə hoppanmayan yadlara.*

Müsahibimiz deyir ki, bayram ərəfəsində yeni gəlin köçmüş qızlara bayram xonçası aparılır. Hər xonçada isə adətə uyğun olaraq yeddiləvin olmalıdır. Yeddiləvin zamanı oğlan evi qız evinə şirniyyatın müxtəlif növlərindən aparır. Şirni növünün çoxluğunu göstərmək məqsədilə ona "yeddiləvin" yaxud da "yeddilövün" adı verilmişdir. Bununla yanaşı, el arasında bir neçə ayinlər də var ki, məhz Novruz bayramı ərəfəsində həyata keçirilir. Həyətdə bar verməyən ağacın dibinə xına basdırılır və ağacın gövdəsinə bayram aşının yağı çəkilir. Bayram tonqalının külü yığılaraq bala verməyən heyvanların üzərinə səpilir. İnanılır ki, bu ayinlə ağaclar bar, qısır heyvanlar isə bala verəcək. Digər bir ayində isə niyyət edən şəxs bayram axşamı ayaqqabısını hündür bir yerə atır. Sabah gedib ayaqqabıya baxır, əgər ayaqqabı düzdürsə, niyyəti qəbul olacaq, yox, əgər ayaqqabı düz deyilsə, niyyəti qəbul olmayacaq.



Milli dəyərlərimizi və adətlərimizi bu gün də qoruyub yaşadan, özünəməxsus adətləri ilə seçilən Ordubad rayonunda Novruz adətlərindən biri də "Xan bəzəmə" mərasimidir. Hər il Novruz bayramında Ordubadda üç gün "Xan" bəzəyirlər. Bir nəfəri əməlli-başlı "əsl" xan kimi geyindirirlər. Başına tac qoyurlar. Meydanda hündür bir taxt düzəldib "Xan"ı oturdurlar. İki nəfər balaca uşaq "Xan"ı yelpiklə yelləyir. Kim istəyir könüllü ona nökər, qulluqçu olur.

Qız-gəlinlər, qonaqlar meydanın dövrəsinə düzülüb tamaşa edirlər. Xanın yanına bəzənmiş xonçalar, səmənilər düzülər. "Xan" əmr verir. Hamı çalıb-oynayır. Hərə öz qabiliyyətini nümayiş etdirir. Burada "Təlxək"lər də olur. Onlar "Xan"ı güldürməyə çalışırlar. "Xan" isə gülməməlidir. Əgər gülsə, onu suya basırlar, təzə "Xan" seçirlər. Meydanda bir qab qoyurlar. Hamı ora xələt atır. Əgər "Xan" üç gün vəzifəsinin öhdəsindən yaxşı gəlsə, bu xələtlər ona çatır, yox, əgər bunu bacarmırsa, taxtdan salınır. AMEA Naxçıvan Bölməsinin əməkdaşı, etnoqraf Asəf Orucov deyir ki, Novruz bayramında bir çox ölkələrdə mərasimlər təşkil olunsa da, "xanbəzəmə" oyununa daha çox Naxçıvan regionunda rast gəlinir.

Novruz bayramı həm də özünəməxsus atributları ilə zəngindir. Səməni cücərdilməsi bu atributlar içərisində yaşı çox qədimlərə dayanan adətdir. Baharın gəlişini simvolizə edən səmənini il təhvil olandan sonra süfrəyə qoymaq isə təbiətin canlanmasından xəbər verir. Bayram ərəfəsində bütün evlərdə səməni göyərdilib süfrələrə qoyurlar. Səməni ilə bağlı daha bir adət səməni halvası bişirməkdir. Bu günlərdə Ordubadda qonağı olduğumuz evin sahibi Almaz xanım bizə bu milli mətbəx nümunəsi haqqında da məlumat verərək dedi ki, səməni halvasını bişirmək asan olmadığı üçün bunu hər adam yox, xüsusi səriştəsi olan qadınlar bişirə bilərlər. Bunun üçün böyük tabaqlara buğda töküb isladırlar. Buğda göyərib, rişələri bir-birinə yapışdıqdan sonra onu parça-parça doğrayıb əzərlər. Onun ağrəngli rişəsini sıxıb qablara yığarlar. Sonra ona bir qədər su qatar, ocaq qurub mis qazanlarda qaynadarlar. Bişənə yaxın rəngi yavaş-yavaş qızarar. Onun içinə cəviz, fındıq tökərlər. Halva hazır olduqdan sonra ailə üzvləri niyyət edib qazana bir ədəd şəkər atar, qapağının üzərinə isə ayna və daraq qoyarlar. Gecə hamı oturub gözləyər ki, filankəsin səmənisi qəbul olacaq, ya olmayacaq. Əgər səməni şirin çıxsa, demək qəbul olunub, əgər şirin deyilsə, deməli, qəbul olmayıb. Rəvayətə görə, Nuh Peyğəmbər gəlib halvadan tamsınar (dadar), saçını darayıb həmin ocaqdan ayrılar. İnanca görə sözügedən ayin baş tutarsa, aynanın üzərinə barmaq izləri düşər və həmin il evdə ruzi-bərəkət çox olar. Novruzda bişirilən şirniyyatlar içərisində Ordubad paxlavasının, şəkərburasının, cəvizli Ordubad dürməyinin öz yeri, öz dad-tamı var.



Naxçıvanın bütün bölgələrində Novruz axşamının səhəri günü ağsaqqalları, ağbirçəkləri görmək adəti uzun illərdir, yaşamaqdadır. Ancaq bir sıra rayonlarımızda, kəndlərimizdə bu adət-ənənə Novruz günü deyil, ilin son çərşənbəsi günü olur. Səhər tezdən qız-gəlinlər axar su üstünə, bulaq başına gedər, evə su gətirər, həmin suyu həyət-bacaya səpərlər. Sonra cavanlar bir alma ilə də olsa, qonşuları, ağbirçəkləri yad edər, onlara bayram təbrikləri çatdırar, yaslıları yasdan çıxararlar.

Almaz xanım deyir ki, bayram günü milli mətbəximizin növbənöv nemətləri hazırlanaraq süfrələrə düzülür. Çərşənbə günü hər evdə çoxlu yumurta boyayar, onları bayramçalıq kimi qonşu uşaqlarına verərlər. Çərşənbə günü kəndlərimizin çoxunda Novruz günündə olduğu kimi, plov bişirərlər. Plovun üz-gözünü isə zövqə görə fərqli hazırlayarlar. Kimisi əti göy-göyərti ilə bişirib plovun yanına qoyar, kimisi də əti yanına qovrulmuş, bişirilmiş ərik, almaxara, xurma, şabalıd və sair qoyar ki, buna el arasında "şirin plov" da deyərlər. Adətən, həmin gün evlərdə aş mütləq bişirilsə də, bəzi bölgələrdə fərqli yemək növlərinə də yer verilir. Filologiya üzrə fəlsəfə doktoru, folklorşünas Sədaqət Nemətova deyir ki, Şərur rayonunun Çərçiboğan kəndində mütləq Novruz bayramı günü daş küftəsi hazırlanmalıdır. Bu ənənə kənddə illərdir ki, davam etdirilir.

Milli dəyərlərinə hər zaman sadiq qalan xalqımız milli birlik bayramımız olan Novruzu qoruyaraq əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə ötürüb. Qeyd edək ki, milli adət-ənənələrimizi, dəyərlərimizi qoruyub saxlamaq baxımından hər zaman nümunə sayılan Naxçıvanda insanları daim sevgiyə, yoldaşlığa, paylaşmağa çağıran Novruz bayramı ümumxalq şənliyi səviyyəsində qeyd olunur. Qədim diyarımızın sakinləri milli kökə və adət-ənənələrə qırılmaz tellərlə bağlı olduğu üçün diyarımız bu Novruzda həm də torpaqlarımızın ərazi bütövlüyünün tamamilə bərpa olunmasının, tarixi Qələbənin sevincini yaşayır, bu Qələbədə Vətən uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalan, xalqımızı öz halal torpaqlarına qovuşduran igid, qəhrəman oğullarımızın əziz xatirəsi ehtiramla yad edilir, onların məzarları ziyarət edilir, doğmalarına baş çəkilir, adlarına ehsanlar verilir. Həmişəyaşar el bayramımız Novruz xalqımızın həyatsevərlik, birlik, həmrəylik, ana təbiətə, doğma yurda, torpağa bağlılıq rəmzi kimi milli ruhumuzda hər zaman yaşayacaq:

*Bahar gəlir, aləmə nur ələnir,*
*Çöllər, düzlər yaşıl dona bələnir,*
*Qız, gəlinlər deyib-gülüb, əylənir*
*Xoş gəlibdi yurdumuza Novruzum.*

**P.S.** *Sovet imperiyasının tərkibində olduğumuz müddətdə Novruza "dini bayram" damğası vurularaq bayramın təşkil edilməsinə icazə verilmirdi. Ulu öndər Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışından sonra apardığı məqsədyönlü siyasət nəticəsində milli birlik rəmzimiz olan Novruz bayramı dövlət səviyyəsində qeyd olunmağa başlandı. Uğurlu siyasətin nəticəsidir ki, 2009-cu ildə YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin Qərarına əsasən Novruz çoxmillətli nominasiya kimi Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edildi. 2010-cu ildə isə BMT Baş Assambleyasının iclasında mart ayının 21-i " Beynəlxalq Novruz Günü" elan edilib.*

**Məcid RƏŞADƏTOĞLU**

## Sosial qayğıya ehtiyacı olan şəxslərə bayram sovqatları təqdim edilib



Novruz bayramı ərəfəsində Naxçıvan şəhərində və muxtar respublikanın rayon mərkəzlərində sosial qayğıya ehtiyacı olan şəxslərlə görüşlər keçirilib, onlara bayram sovqatı təqdim edilib. Tədbirlərdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və rayon icra hakimiyyətlərinin nümayəndələri çıxış edərək müvafiq kateqoriyadan olan şəxsləri bayram münasibətilə təbrik ediblər.

Çıxışlarda vurğulanıb ki, muxtar respublikada xüsusi qayğıya ehtiyacı olan şəxslərin sosial müdafiəsinin təmin olunması və cəmiyyətə inteqrasiyası istiqamətində davamlı tədbirlər həyata keçirilir. Bu kateqoriyadan olan şəxslərin məşğulluğunun təmin olunması, yaradıcılıq potensialının inkişaf etdirilməsi, müxtəlif növ sosial xidmətlərin göstərilməsi, bayram günlərində onların iştirakı ilə tədbirlərin keçirilməsi davamlı dövlət qayğısının bariz nümunəsidir.

Qeyd edək ki, hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən tədbirlərdə iştirak edə bilməyən şəxslər evlərində ziyarət olunub, onlara bayram sovqatı və Novruz bayramının rəmzi olan səmənilər təqdim edilib. Bayram tədbirlərində, ümumilikdə, sosial qayğıya ehtiyacı olan 1000 şəxsə sovqatlar verilib.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## "Elm günləri" çərçivəsində seminar-müşavirə keçirilmişdir

Naxçıvan Müəllimlər İnstitutunda "Elm günləri" çərçivəsində "Təhsilalanların elmi-tədqiqat fəaliyyətinin təşkili vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda ənənəvi seminar-müşavirə keçirilib. Tədbiri giriş sözü ilə institutun rektoru Azad Novruzov açıb. Ali təhsil ocağında ənənəvi olaraq keçirilən "Elm günləri"nin məqsəd və əhəmiyyətindən danışan rektor bildirib ki, son ilin yekunlarına görə, institut professor-müəllim heyətinin 366 elmi-metodik əsəri, o cümlədən 7 kitabı, 6 monoqrafiyası, 24 tədris-metodik vəsaiti, 208 məqaləsi, 70 konfrans materialı, 51 tezisi dərc olunub. Məqalə və tezislərdən 26-sı beynəlxalq xülasələndirmə və indeksləmə jurnalları və digər elmi toplularda işıq üzü görüb. 2020-ci ildə institutun 3 əməkdaşı elmi dərəcə alıb. Rektor diqqətə çatdırıb ki, 2020-ci ildə Naxçıvan Müəllimlər İnstitutunda



pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini həyata keçirmək üçün Dissertasiya şurası fəaliyyətə başlayıb. İnstitutda elmi fəaliyyətin keyfiyyət və səmərəliliyinin artırılmasını təmin etmək, elmi-pedaqoji əməkdaşların fəaliyyətini vahid meyarlar əsasında qiymətləndirmək məqsədilə "Naxçıvan Müəllimlər İnstitutunda elmi-pedaqoji əməkdaşların elmi fəaliyyətinin qiymətləndirilməsinə dair Əsasnamə" hazırlanıb, institutun Elmi Şurasında qəbul edilib və bu ildən tətbiqinə başlanılıb.

Sonra institutda təhsilalanların elmi-tədqiqat işlərinin təşkili vəziyyəti və qarşıda duran vəzifələr barəsində institutun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Qurban Qurbanlı məruzə edib.

Riyaziyyat və onun tədrisi metodikası kafedrasının müdiri, riyaziyyat üzrə elmlər doktoru Yaqub Məmmədov tələbə və magistrantların elmi-tədqiqat işlərinə verilən tələblər və onların təmin edilməsi yollarından danışıb.

İnstitut Tələbə Elmi Cəmiyyətinin sədri Aysun Nağdəliyeva "Naxçıvan Müəllimlər İnstitutunun TEC-in 2020-2021-ci tədris ilinin I yarımilində fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr" mövzusunda məruzə edib.

**Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

## Naxçıvanın qədim və zəngin xalq sənəti nümunələrindən olan bədii tikmə

***Azərbaycan xalqı qədim tarixə malik olduğu kimi, həm də bu tarixi özünəməxsus mədəniyyəti ilə zənginləşdirmişdir. Yüzillərboyu adət-ənənələrimizi, məişətimizi, həyat tərzimizi özündə yaşadan milli mədəniyyətimiz çoxşaxəli olmaqla yanaşı, xalqımızın dünyagörüşünün, zövqünün, həyata baxışının fomalaşmasında mühüm rol oynamışdır. Mədəniyyətimizin əsrlər boyunca cilalana-cilalana bu günümüzə gəlib çatmasında əsas amillərdən biri də elə bu mədəniyyətin yaradıcıları və zənginləşməsində məxsusi rolu olan qədim el sənəti sahələridir. Onlardan biri də dekorativ-tətbiqi sənətdir.***



Qədim dövrlərdən meydana gəlmiş bədii tikmə sənəti digər əl işləri kimi xalqın milli-mənəvi və estetik düşüncəsini özündə əks etdirir, həmçinin ölkəmizdə ən geniş yayılmış xalq sənəti növlərindən olub. Qeyd edək ki, ölkəmizdə bədii tikmənin bir çox növləri var: sırama, təkəlduz (qullabduz), güləbətin, muncuqlu, qurama, saya, piləkli, oturtma, çülmə, qondarma, məlilə və sair. Qədim diyarımız Naxçıvanda da xalq sənəti sahəsi olan bədii tikmə nümunələrinə çox rast gəlmək mümkündür. Bu sahə ilə məşğul olan insanlar rəngarəng ipək, pambıq və yun saplardan, həndəsi və nəbati naxışlar əsasında düzülmüş piləklərdən, muncuqlardan istifadə etməklə tikmə sənətinin müxtəlif növlərini yaratmışlar. Ən qədim və bəlkə də, ilk tikmə nümunəsi kimi qeyd edəcəyimiz üsul sıramadır. Tikmələrin ən sadə üsulu sayılan sıramadan, adətən, yorğan-döşəklərin sıranıb səliqəli formaya salınmasında istifadə olunur. Qeyd edək ki, bu yorğan-döşəklərin üzərində sırama üsulu ilə hər hansısa bir həndəsi motivləri xatırladacaq şəkildə pambıq bez üzərində sırıqlar salınır. Artıq sırama üsulu bəzəkli ipəkli parçalardan olan cehizlik yorğanlarda iynədalı tikmə ilə də əvəzlənərək həm nəbati, həm də həndəsi naxışların işlənməsi ilə dəb halını almışdır.





Orta əsrlər dövründən geniş yayılmış bədii tikmə üsulu olan güləbətindən Naxçıvanda da geniş istifadə olunmuşdur. Bu tikmə növü öz zənginliyi ilə seçilir. Bundan ən çox qadın üst və baş geyimləri, arxalıq, küləcə, araqçın, eləcə də məişət əşyaları, saat və daraq qabları, o cümlədən müxtəlif əşyaların üzərində bəzək kimi vurularaq istifadə edilirdi. Bu cür tikmə nümunələrinə daha çox nişanlı qızların boğçasına qoyulan əşyalarda rast gəlmək olurdu. Güləbətin tikmədə yalnız qızılı və gümüşü saplardan istifadə edilirdi. Eyni zamanda bu tikmə növünün bir neçə üsulu da var. Bəzi mənbələrdə belə fikirlər də vardır ki, orta əsrlər dövründə sənətkarlardan alınan vergilər bəzən bu cür güləbətin nümunələri ilə də ödənilirdi. Qeyd edək ki, Naxçıvanda qadın üst geyimlərində güləbətin tikmə nümunələrinə çox rast gəlinir. Məsələn, Naxçıvan mühiti və ziyalıları, hərbçiləri ilə bağlı fotoşəkillərin əksəriyyətinin müəllifi olan məşhur fotoqraf Dmitri İvanoviç Yermakovun 1890-cı ildə Naxçıvanda əsilzadə bir ailədə çəkdiyi fotoşəkillərdə biz milli qadın geyim nümunələri ilə bərabər, bu geyimin üzərində əks olunmuş bədii tikmə nümunələrinə də rast gəlirik. Hətta bu fotoşəkillərdə bəzəkli milli geyim dəsti ilə yanaşı, üzəri zəngin tikmə nümunələri ilə bəzədilmiş məişət əşyalarını da görürük. (güləbətin işləməli örtük, mütəkkə, yastıq). Bundan başqa, Naxçıvan şəhərindəki "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində sərgilənən XVIII əsrə aid güləbətinli masa örtüyünü də nümünə göstərmək olar.

Naxçıvanda geniş yayılmış tikmə növlərindən biri də doldurma tikmədir. Bu tikmə üsulundan, adətən, Naxçıvan qadınlarının üst geyimlərində, araqçınlarda və məişət əşyalarında daha çox təsadüf olunurdu. Adından da bəlli olduğu kimi, bu cür tikmələr, adətən, naxışların və ya müxtəlif bəzəklərin "doldurulması" üsulu ilə hazırlanır. Yeri gəlmişkən, bədii tikmə növlərindən Naxçıvanda vaxtilə çarpayı örtüklərinin üzərində və yaxud keçmiş zamanlarda evin taxçalarını örtmək üçün istifadə olunan kiçik pərdələr üzərində istifadə edilib.

Tikilmə texnikasına və alətinə görə digərlərindən fərqlənən bir tikmə nümunəsi də vardır ki, bu da təkəlduz (qullabduz) tikmədir. Bu tikmə ilə, adətən, qadınlarla yanaşı, kişilər də məşğul olmuşlar. Çünki belə tikmədə iynədən deyil, qullabdan (qarmaq formasında dəmir alət) istifadə olunduğu üçün qol gücü tələb edilirdi. Təkəlduz tikmədən ən çox məişət əşyalarında (xüsusilə divar bəzəklərində), kişi baş geyimlərində (şəbkülah, araqçın) istifadə olunmuşdur. Kişi baş geyimlərində əks olunan "Qurani-Kərim" ayələri bu tikmə üsulu ilə toxunurdu. Təkəlduzdan daha çox Culfa, Ordubad rayonlarında tətbiq olunmuşdur. Qeyd edək ki, son dövrlərə kimi təkəlduz tikmə üsulundan istifadə edərək divar bəzəklərinin hazırlanmasında öz ustalıq məharətini göstərmiş Naxçıvan sakinlərindən biri də 1921-ci il təvəllüdlü Culfa rayon Kırna kənd sakini Behbud Məmmədov olmuşdur. O, dünyasını dəyişsə də, bu bölgədə hər kəs onun mahir usta olduğunu yaxşı xatırlayır.

Adətən, zərgərlik məmulatlarında istifadə olunan məlilə üsulunu bədii tikmələrdə də görürük. Məlilə tikmə fərqli bir texnika ilə, ipi iynənin üzərinə dolayaraq parça üzərinə balaca düyünlər formasında yerləşdirilir. Həmin bu balaca düyünlər, sanki "qızılgül" formasını xatırladır. Culfa, Ordubad, Şərur və Şahbuz rayonlarında qadınlar üçün keçirtmə baş geyimlərinin (araqçınların) bu tikmə növü ilə bəzədilməsinə rast gəlirik.

Vurğulamaq lazımdır ki, Naxçıvanda bədii tikmələrlə məşğul olan sənətkarlar parçaların üzərində işləyərkən müxtəlif motivlərə müraciət etmişlər. Bu cür motivlərə müxtəlif quş və heyvan, gül-çiçək, ay-ulduz və ya Günəş təsvirlərini misal gətirmək olar. Muxtar respublikamızın müxtəlif bölgələrində bu gün də bəzi evlərdə xatirə kimi saxlanılmış belə əşyalar var. Xalq yaradıcılığının mühüm sahəsi olan bədii tikmələr muxtar respublikamızda indi də yaşadılır. Hazırda qədim diyarımızın bir çox bölgələrində istedadlı qadınlarımız tərəfindən bədii tikmə sənəti inkişaf etdirilir. Xüsusilə qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı muxtar respublikada belə dəyərlərin qorunması və təbliği ilə yanaşı, aid dövlət qurumlarına da bu işi nəzarətdə saxlamağa imkan verib. Hər il muxtar respublikamızda istedadlı qadınlarımızın əl işləri olan bədii tikmə nümunələrindən ibarət sərgilərin təşkil olunması bunun parlaq nümunəsidir. Eyni zamanda bu sərgilərdə həmin əl işlərinin satışı da təşkil edilir. Qeyd edəcəyimiz digər bir mühüm amil isə odur ki, bu gün muxtar respublikamızda xalq sənəti sahələrinə göstərilən dövlət qayğısı gənc nəslə də bu sənətin öyrədilməsinə imkan verib. Zəngin mədəni ənənələri ilə seçilən qədim diyarımız Naxçıvanda dekorativ-tətbiqi sənətin digər sahələri kimi bədii tikmə də bundan sonra yaşadılacaq, bu cür dəyərlərimiz hər zaman təbliğ olunacaqdır.

**Aidə İBRAHİMOVA**
***Culfa rayon Culfa şəhər klubunun müdiri***

***Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi büdcə təşkilatlarında maliyyə və mühasibatlıq işində çalışanların mövcud biliklərinin artırılması və ixtisaslarının təkmilləşdirilməsi istiqamətində işlərini davam etdirir.***

## Mühasiblər təlimlərə cəlb edilib



Üç gün ərzində keçirilməsi nəzərdə tutulan təlimin məqsədi mühasibatlıq sahəsində çalışan işçilərin peşə hazırlığının təkmilləşdirilməsi və biliklərinin qiymətləndirilməsindən ibarətdir.

Təlim başlanmazdan əvvəl Mərkəzin direktoru Mehriban İmanova çıxış edərək bildirib ki, təlimdə iştirak etmək maliyyə-mühasibat işçilərinə mühasibat uçotunun təşkili və aparılması, eləcə də maliyyə və vergi hesabatlarının hazırlanması, təqdim olunması ilə bağlı biliklərini təkmilləşdirmək, hər iki uçot arasında olan oxşar və fərqli cəhətləri təhlil etmək imkanı yaradacaq.

Təlimin ilk iki günü Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin Maliyyə-təsərrüfat və ümumi işlər sektorunun müdiri Arzuman İmanov "Büdcə təşkilatlarında maliyyə hesabatlarının hazırlanması və praktik əsasları" mövzusunda çıxış edərək maliyyə hesabatlarının tərtib edilməsinin nəzəri və praktik mahiyyətini zənginləşdirilmiş slaydlar vasitəsilə izah edib, müvafiq praktik tapşırıqlar yerinə yetirilib.

Təlimin üçüncü günü Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin Babək Rayon Vergilər İdarəsinin Mühasibat uçotu və təsərrüfat bölməsinin rəisi-baş mühasibi Cavid Ələkbərov "Büdcə təşkilatlarında vergi uçotunun təşkili" mövzusunda çıxış edərək vergi hesabatı sənədlərinin və vergi uçotu registrlərinin saxlanması, vergi bəyannamələrinin, hesabatlarının tərtib edilməsi və göndərilməsi qaydalarının dinlənilməsi nəzərdə tutulub.

Təlimin sonunda sertifikatlar təqdim ediləcək.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## *"Sabahın müəllimi"* layihəsi uğurla icra olunur



Naxçıvan şəhər ümumtəhsil məktəblərində pedaqoji ixtisaslar üzrə təhsil alan təcrübəçi tələbələrin öyrəndikləri nəzəri biliklərin tətbiqi yolu ilə ixtisasları dərindən mənimsəmələri və peşəkar müəllim kimi inkişaf etmələrinə şərait yaratmaq məqsədilə "Sabahın müəllimi" layihəsi davam edir. Növbəti görüş Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə Naxçıvan Müəllimlər İnstitutunun Riyaziyyat-informatika və İbtidai sinif müəllimliyi ixtisasları üzrə təcrübədə olan tələbələrlə baş tutub.

Təcrübəni aparan Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin direktoru, Təhsildə inkişaf və innovasiyalar üzrə IV Qrant müsabiqəsinin qalibi Nazim Rəhimov təcrübəçi tələbələrə məktəbin kompüter otağında keçirilən "Kiçik proqramçılar" adlı seminarın əhəmiyyətindən bəhs edib.

Seminar zamanı təcrübəçi tələbələr əyani olaraq "Scratch" proqramı ilə tanış olub və onun işləmə alqoritmini öyrəniblər.

Qeyd edək ki, bu tədris ilində Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universitetindən, ümumilikdə, 376 tələbə fevralın 16-dan mayın 22-dək Heydər Əliyev adına tam orta məktəbdə, Naxçıvan Qızlar Liseyində və Naxçıvan şəhər ümumtəhsil məktəblərində pedaqoji təcrübə keçirlər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Maarifləndirmə tədbiri keçirilib



***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin təşkilatçılığı ilə "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri"nə dair növbəti maarifləndirici tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə xidmətin əməkdaşı Tural Bayramov açaraq bildirib ki, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqətiolma və yaşama icazəsinin verilməsi ilə bağlı kifayət qədər müxtəlif hallar nəzərdə tutulub. Təbii ki, bu da onların ölkəmizdə müvəqqəti yaşama hüququnu daha asan formada əldə etmələri baxımından müstəsna əhəmiyyətə malikdir.

Tədbirdə, həmçinin əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqətiolma və yaşama müddətinin uzadılması, qaydası və tələb olunan sənədlər barədə də geniş məlumatlar verilib, çıxışlar, təqdim edilən slaydlar əcnəbilərin başa düşə bilmələri üçün ingilis dilində də səsləndirilib.

Sonra tədbir iştirakçılarına xidmət tərəfindən hazırlanan maarifləndirici bukletlər paylanılıb, əcnəbiləri maraqlandıran suallar cavablandırılıb. Tədbirin yekununda əcnəbilərin "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə ekskursiyaları təşkil olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

*Ünvan:* AZ-7000, *Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Nail Əsgərov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1500. Sifariş № 259